ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1007.

**UOT 338:37**

# AZƏRBAYCAN RESPUBLİKASINDA ALİ TƏHSİL SİSTEMİNİN SOSİAL-İQTİSADİ SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Rüstəmli Amin Allahverdi oğlu

## XÜLASƏ

**Tədqiqatın məqsədi**-müasir transformasiya şəraitində Azərbaycanın ali təhsil sisteminin sosial-iqtisadi səmərəliliyinin qiymətləndirilməsinin müəyyən edilməsidir.
**Tədqiqatın metedologiyası** - analitik, müşahidə, ümumiləşdirmə, iqtisadi-statistik və ekonometrik metodlar tətbiq edilməsidir.
**Tədqiqatın tətbiqi əhəmiyyəti** – Mövzu üzrə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında Azərbaycan ali təhsil sisteminin müasir vəziyyətinin təhlil edilərək qiymətləndirilməsi, ali təhsil sisteminin sosial-iqtisadi səmərəliliyinin artırılması yollarının müəyyən edilməsidir.
**Tədqiqatın nəticələri** - Araşdırma nəticələrinə görə dövlət büdcəsinin xərcləri ilə İKT sektorunda yaranan ümumi məhsul buraxılışı arasında olduqca yüksək korelyasiya əlaqəsi vardır və təhsil xərclərinin artması İKT üzrə ümumi məhsul buraxılışının artmasını şərtləndirir.
**Tədqiqatın elmi yeniliyi** - Azərbaycan ali təhsil sisteminin sosial-iqtisadi səmərəliliyinin artırılmasına təsir edən amillərin müəyyən edilməsidir.

**Açar sözlər:** ümumi daxili məhsul, dövlət büdcəsi, təhsil xərcləri, sosial-iqtisadi səmərəlilik, korrelyasiya, reqressiya, elastiklik əmsalı, ali təhsil sistemi, səhiyyə, sosial müdafiə, sosial təminat, determinasiya əmsalı

**GİRİŞ**. Qloballaşan dünya iqtisadiyyatının müasir transformasiyası şəraitində təhsil sisteminin optimal tənzimlənməsi və sosial-iqtisadi səmərəliliyinin artırılması mühüm əhəmiyyət kəsb edən əsas prioritetlərdən biridir. Təhsilin sosial-iqtisadi səmərəlililiyi, təhsil sferası üzrə cəmiyyətin tələblərinə cavab verən göstəricilər sisteminin tətbiqi nəzərə alınmaqla qiymətləndirilir. İqtisadi funksiyalar baxımından təhsilin sosial-iqtisadi səmərəliliyinin artması müxtəlif növ sosial mühitdə, yəni təhsildə, mədəniyyətdə, səhiyyədə proseslərin dövlət tərəfindən idarə edilməsinin səmərəliliyi ilə üzvi surətdə bağlıdır. Qeyd etmək lazımdır ki, ali təhsil sisteminin səmərəliliyi təhsilin iqtisadi və sosial nəticəsinin ümumilikdə təhsil xərclərinə nisbəti ilə müəyyən edildiyindən, ilkin olaraq təhsilin sosial-iqtisadi nəticəsi mühüm əhəmiyyətə malikdir. Bu nəticə əsasən ali təhsil müəssisələrinin əmək bazarının tələblərinə uyğun olan mütəxəssisələrin hazırlanması ilə müəyyənləşdirilir. Tədqiqatlar göstərir ki, bəzi ali təhsil müəssisələri daha asan olan və dəbli mütəxəssisləri hazırlamağa çalışırlar ki, bu da əmək bazarının tələbləri ilə uyğunsuzluğa səbəb olmaqla, ali təhsil müəssisəinin sosial-iqtisadi səmərəliliyinin azalmasına gətirib çıxarır (Bekker, 2003). Bu baxımdan da, təhsilin optimal idarə edilməsi iqtisadi və sosial səmərənin əldə olunmasını şərtləndirir.

**Material və metodlar.** Tədqiqat obyekti kimi ali təhsil siteminin sosial-iqtisadi səmərəliliyinin müəyyənləşdirilməsi ilə bağlı məsələlər götürülmüşdür. Tədqiqat işində ali təhsil siteminin səmərəliliyinin müəyyən edilməsi, ona təsir edən amillərin qiymətləndirilməsi üzrə müxtəlif yanşma metodları aparılmışdır (Astaxova və Lomakin, 2008). Elmi tədqiqat nəticəsində təhsil siteminin səmərəliliyinin yüksəldilməsinin İKT-nin inkişafına təsiri təyin edilmişdir (Yadigarov, 2016)

[1]Əsas müəllif/Corresponding author: Amin Allahverdi oglu Rustamli, ADAU-nun doktorantı.

ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1007.

**Nəticələr və müzakirə.** Elmlə birlikdə bilik sektorunu təkcə milli miqyasda deyil, həm də gələcək cəmiyyətə və iqtisadiyyata taleyüklü təsir göstərən prioritet fəaliyyət kimi təmsil edən təhsil sektorunun müəyyənləşdirilməsi, təhsil xidmətlərinin göstərilməsi üçün obyektiv ilkin şərtlər mövcuddur. Qloballaşan dünya iqtisadiyyatında elmi-texniki tərəqqinin müasir mərhələsində, post-sənaye cəmiyyəti ideyasında transformasiyanın, onun bilik iqtisadiyyatına əsaslanan cəmiyyət kimi formalaşması müşahidə edilir (Əlirzayev, 2010). Bilik iqtisadiyyatının əsas məhsulu - intellektual kapitaldır. Azərbaycanın sosial-iqtisadi inkişafa dair Milli prioritelərin əsas istiqmətlərindən biri kimi rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanının ölkəmizdə inkişaf etdirilməsidir. Biliklərin mənimsənilməsi və ötürülməsinin forması olan təhsil sistemi olmasaydı, elmi-texniki, texnoloji, iqtisadi potensialın artımı olmazdı. Onun əsas daşıyıcısı savadlı insanlar, ixtisaslı peşəkar təlim keçmiş insan potensialıdır. Ali təhsilin keyfiyyətinin və səmərəliliyinin yüksəldilməsi, təhsilə olan tələblərin daha yaxşı ödənilməsi ali təhsil müəssisələrinin rəhbərləri və professor-müəllim heyətinin simasında təhsil prosesinin bilavasitə iştirakçıları tərəfindən daima dəstəklənir. Təhsilin sosial-iqtisadi səmərəliliyini səciyyələndirən göstəricilərin müəyyənləşdirilməsi, imtiyazlı, strukturlaşdırılmamış mülahizələrin, səmərəlilik meyarlarının tətbiqi ilə bağlı əsas anlayışların, əsas kateqoriyalar haqqında təsəvvürlərin formalaşmamasını qeyd etmək lazımdır. Təhsil sisteminin effektivliyinin müəyyən edilməsi və təhlili onu əldə etmək üçün məqsəd və istəklərə əsaslanmalı, eyni fənlər üçün müxtəlif məqsədlərin mövcudluğunu və təhsil vektorunun çatdığı vahid universal məqsədin olmaması nəzərə almalıdır (Kərimov və Osmanov, 2010).

Hər hansı sosial-iqtisadi sistemin fəaliyyətinin nəticəsi qarşıya qoyulmuş məqsədlərə nail olma səviyyəsi ilə xarakterizə olunur. Ali təhsili sisteminin çoxfunksiyalılığı və çoxməqsədliliyi təhsilin sosial-iqtisadi səmərəliliyinin onların formalaşma mənbələrinin səviyyəsinə, hədəf yönümlü obyektlərə və daxili məzmuna görə fərqlənən müxtəlif məqsədlər nöqteyi-nəzərindən şərh edilməsi zərurətini əvvəlcədən müəyyən edir. Belə ki, təhsil haqqında diplomu verən ali təhsil müəssisəsinin statusundan asılı olaraq müəyyən edilən ali təhsilin reputasiya effektivliyini nəzərə almaq məqbul və hətta arzuolunandır. Məlumdur ki, ali təhsilli mütəxəssislərini işə götürənlər ilk növbədə diplomu hansı universitetin verdiyinə baxır, hazırlığın keyfiyyətini, məzunun təhsil səviyyəsini onun təhsil aldığı universitetin statusu ilə müəyyən edir. Nüfuzlu dövlət universitetində təhsil haqqının aşağı prestijli qeyri-dövlət universitetində təhsil haqqının beş, hətta on dəfə yüksək olması səbəbsiz deyil. Müvafiq olaraq, müəyyən bir təhsil müəssisəsində ali peşə təhsilinin əldə edilməsinin effektivliyini qiymətləndirərkən abituriyent və onun valideynləri universitetin statusunun orada ali təhsil almaq xərcləri əsasında ali təhsil müəssisəsinə nisbəti şəklində təhsilin iqtisadi səmərəliliyi meyarından çıxış etməyə meyllidirlər. Xarakterikdir ki, bu kifayət qədər fərdi, yerli səmərəlilik meyarı fərdin ali təhsilə yatırdığı sərmayənin qaytarılmasının daha ümumi göstəricisi ilə daha yaxşı əlaqələndirilir. Fərdlərin xərcləri və nəticələrinin müqayisəsi əsasında ali təhsilin iqtisadi səmərəliliyinin kəmiyyətcə qiymətləndirilməsi problemləri və yanaşmaları amerikalı alim, iqtisadiyyat üzrə Nobel mükafatı laureatı Qari Bekerin əsərlərində hərtərəfli öyrənilmiş və müzakirə edilmişdir (Bekker, 2003). Qeyd olunan tədqiqatda ali təhsilin fərdi iqtisadi səmərəliliyi universitet məzununun bütün fəal iş dövrü üçün aldığı əlavə gəlir şəklində güzəştli iqtisadi effektlə təhsil almaq üçün ümumi xərclərinin müqayisəsi yolu ilə müəyyən edilir. Bir şəxsin ali təhsili almaq üçün xərclərinin pul gəlirlərinin artması şəklində gəlir gətirən öz intellektual və peşəkar kapitalına investisiyaları əks etdirən konsepsiya, investisiya səmərəliliyi tədqiqatçıların əsərlərində geniş təhlil edilmişdir (Bekker, 2003; Sumarokova, 2001). Təbii ki, bütün ali təhsili sisteminin dövlət, cəmiyyət, iqtisadiyyat, ölkə, dövlət büdcəsi üçün səmərəliliyini xarakterizə edən iqtisadi və

ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1007.

sosial səmərəlilik bir qədər fərqli mövqelərdən qiymətləndirilməlidir. Burada ön plana çıxan bir o qədər də ayrı-ayrı fərdlərin ali peşə təhsili alması ilə əlaqədar əmək haqqının artırılması deyil, eyni zamanda ölkənin, regionun, müəssisənin, şirkətin yaradılan sosial məhsuluna töhfənin artmasıdır. Dövlətin nöqteyi-nəzərindən iqtisadi və sosial səmərəlilik meyarları ölkənin intellektual və təhsil potensialının, milli sərvətinin, ümumi daxili məhsulunun, regional və dövlət səviyyəsində artım və təkmilləşdirmə ilə təhsil səviyyəsi arasındakı əlaqəni əks etdirmək üçün nəzərdə tutulmuşdur. Ali təhsili sisteminin fəaliyyətinin sosial-iqtisadi səmərəliliyini qiymətləndirmək üçün müxtəlif yanaşmalardan asılı olmayaraq, təhsili sisteminin fəaliyyətinin sosial-iqtisadi səmərəliliyi aşağıdakı vahid məntiqi düsturla hesablanır (Sumarokova, 2001).

$$T_S = \frac{T_{isn}}{T_{ÜX}} \quad (1)$$

Burada, $T_S$ − təhsilin social-iqtisadi səmərəliliyi,
$T_{isn}$ − təhsilin iqtisadi və sosial nəticəsi
$T_{ÜX}$ − təhsilin ümumi xərcləri

Qeyd etmək lazımdır ki, təhsilin iqtisadi və sosial nəticəsi bilavasitə ÜDM-in artımı ilə müəyyən edildiyindən, təhsilin səmərəliliyimni ÜDM-in artımının təhsil xərclərinə nisbəti ilə də müəyyən etmək olar. Təhsilə çəkilən xərclər və onun səmərəliliyi elm-texnoloji tərəqqinin ölçülməsi hesavına qiymətləndirilir. Araşdırmalar göstərir ki, təhsilin səmərəsi uzunmüddətli olmaqla, tətbiqi mahiyyətə malikdir. Elmin inkişafı əsasən sosial-iqtisadi inkişafın əsas amili kimi, əmək bazarının tələbi və milli-mənəvi dəyərlərə uyğun formada təkmilləşir. Elmin inkişafı əsasən özünümaliyyələşdirmə prinsipi və özünü idarəetmə metodları hesabına, qobal rəqabət mühiti şəraitində mərkəzləşdirilmiş ehtiyyatlar və müfvafiq fondlar hesabına fəaliyyətini genişləndurməlidir.

Ölkə iqtisadiyyatının innovativ inkişaf yoluna keçirilməsi ilə bağlı hər bir ölkənin qarşısında duran strateji vəzifə ali təhsilin keyfiyyət və səmərəliliyi meyarlarının birləşdirilməsi zərurətini əvvəlcədən müəyyən edir. Ali təhsilin keyfiyyətinə nail olmaq müxtəlif profilli ixtisaslar üzrə kadr hazırlığının strukturu, elm və texnika sahəsində tərəqqi nəticəsində yaranan yeni biliklərin mənimsənilməsi, təlim zamanı müasir informasiya texnologiyalarından istifadə, təhsil müəssisələrinin texniki təchizatı ilə bağlıdır. Ali təhsilin keyfiyyətinin bu və bir çox digər komponentləri əsasən ali təhsilin iqtisadi və sosial səmərəsini praktiki səmərəlilik, mütəxəssisin konkret fəaliyyətinə qaytarılması və əldə etdiyi ixtisas üzrə işinin nəticələri şəklində müəyyən edir. Azərbaycan iqtisadiyyatının bazar iqtisadiyyatına keçməsi və ali təhsilli mütəxəssislər üçün əmək bazarının yaranması ilə əlaqədar olaraq, təhsil sisteminin sosial səmərəliliyi ali təhsil müəssisələrini bitirən gənc mütəxəssislərin potensial məşğulluğu ilə əlaqələndirilir. Təşkilatlardan yüksək ixtisaslı mütəxəssislər üçün birbaşa sifarişlər, onların konkret ali məktəbdə hazırlanması üçün müraciətlər, məzunların məqsədyönlü bölgüsü sistemi olmadığından bazarda tələb və təklifin strukturu və həcmləri arasında uyğunsuzluq yaranır. Aşağıdakı qrafikdə Azərbaycanın Ali Təhsil müəssisələrinin və bu müəssisələrdə təhsil alan tələbələrin sayı göstərilmişdir.

ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1007.

**Qrafik 1. 1990/1991-2022/2023-cü tədris illərində Azərbaycanda Ali Təhsil müəssisələrinin və bu müəssisələrdə təhsil alan tələbələrin sayı, nəfərlə**




**Mənbə.** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet saytı - https://www.stat.gov.az/source/education/ (08.05.2024)

Qrafik məlumatlardan görünür ki, Azərbaycanda Ali Təhsil müəssisələrinin sayı 1990/1991-2015/2016-cı illəri əhatə edən tədris illəri üzrə 37 vahid artaraq 54 olmuşdur. Həmin dövrdən 2022/2023-cü tədris ilinədək isə 3 vahid azalaraq 51 olmuşdur. Ali Təhsil müəssisələrində tələbələrin ümumi sayı isə artan dinamika ilə inkişaf edərək 1990/1991-ci illəri əhatə edən tədris ili ilə müqayisədə 2,2 dəfə artaraq, 222809 nəfər olmuşdur. Bu artım ali təhsil müəssisələrində əhalinin hər 10000 nəfərinə düşən tələbələrin sayının artması ilə nəticələnmişdir. Aşağıdakı qrafikdən bunları daha aydın görmək olar.

**Qrafik 2. 2000-2022-ci illər ərzində tədris ilinin əvvəlinə Azərbaycanda Ali Təhsilin əsas göstəriciləri.**




**Mənbə.** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet saytı - https://www.stat.gov.az/source/education/ (08.05.2024)

ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1007.

Qrafikdən göründüyü kimi tədris ilinin əvvəlinə əhalinin hər 10000 nəfərinə düşən ali təhsil müəssisələrində tələbələrin sayı tədqiq oluna dövr üzrə artaraq 2022-ci ildə 220 nəfər olmuşdur ki, bu da190-cı illə müqayisədə 48,6% çoxdur. Ali təhsil müəssisələrini bitirmiş mütəxəssislərin sayı isə 1994-cü ildən etibarən artan dinamikaikə inkişaf edərək 2022-ci ildə 46039 nəfər olmuşdur ki, bu da 1990-2022-ci illər üzrə ən yüksək göstəricidir. Ali təhsil müəssisələrinə qəbul olan tələbələrin sayında bkalavriatların sayı əvvəlki illərlə müqayisədə artaraq 2022-ci ildə 50522 nəfər, magistirlərin sayı isə 1998-ci ilə nisbətən həmin ildə 5,9 dəfə artaraq 1991 nəfər olmuşdur.

Tədqiqatlar göstərir ki, təhsilin sosial-iqtisadi səmərəliliyinin artması informasiya cəmiyyətini inkişaf etdirməklə, ümüumi daxili məhsulun (ÜDM) artmasına əsaslı şəkildə təsir göstərir. Təhsilin sosial-iqtisadi səmərəliliyinin artmasında əsasən təhsil xərcləri ilə yanaşı, bilavasitə səhiyyə, sosial müdafiə və sosial təmian xərclərinin artması da mühüm rol oynayır. Aşağdakı qrafikdə dövlət büdcəsinin xərclərində həmin amillərə yönələn xərclərin məbləği göstərilmişdir.

**Qrafik 3.**

**1995-2023-ci illər ərzində Azərbaycan Respublikasının dövlət büdcəsində təhsil, səhiyyə, sosial müdafiə və social təminat xərclərinin məbləği, milyon manatla**




Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet saytı - https://www.stat.gov.az/source/finance/ (08.05.2024)

Statistik məlumatlar əsasında tərtib edilmiş qrafikdən göründüyü kimi Azərbaycan Respublikasının dövlət büdcəsindən təhsil və səhiyyəyə yönələn xərclər 1995-2023-cü illər üzrə artan dinamika ilə inkişaf etmişdir. Sosial müdafiə və təminat xərcləri isə 2015 və 2017-2018-ci illərdə azalsa da, sonrakı dövrdə artmışdır. Btün bunlar insan kapitalının inkişafının səmərəliliyini artıraraq, informasiya cəmiyyətinin inkişafını şərtləndirir.

Qeyd etmək lazımdır ki, təhsil xərclərinin artması elmin inkişafı ilə bərabər ölkəmizdə İKT-nin inkişafını da şərtləndirmişdir. Araşdırmalar göstərir ki, dövlət büdcəsi tərəfindən təhsilin inkişafına yönələn xərclərin artması ilə İKT sektorunda yaranan məhsul buraxılışı arasında yüksək korrelyasiya asılılığı vardır. 2005-2022-ci illərin statistik məlumatlarına

ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1007.

uyğun olaraq, MS Excel proqramında bu göstəricilər arasındakı asılılığın korrelyasiya-reqressiya analizini aparsaq aşağıdakı nəticəni alarıq.

**Qrafik 4.**

**Azərbaycan Respublikasının dövlət büdcəsi tərəfindən elmin inkişafına yönələn xərclə İKT sektorunda yaranan məhsul buraxılışı arasındakı korrelyasiya-reqressiya asılılığı**




**Mənbə. MS Exceldə müəllif tərəfindən tərtib edil**

Qrafikdən göründüyü kimi Azərbaycan Respublikasının dövlət büdcəsi tərəfindən təhsilin inkişafına yönələn xərclə İKT sektorunda yaranan məhsul buraxılışı arasında y = 0,6416x + 415,7 xətti reqressiya tənliyi ilə ifadə edilən olduqca yüksək korrelyasiya asılılığı vardır ($R = \sqrt{0{,}9313} = 0{,}965$). Determinasiya əmsalına görə modelə daxil olan izahedici dəyişən nəticə amilini 93,13% izah edir (Yadigarov, 2019)

Səbəb amilinin 1% artması hesabına, nəticə amilinin neşə faiz dəyişəcəyini ifadə edən elastiklik əmsalını hesablamaqla, dövlət büdcəsi tərəfindən təhsilin inkişafına yönələn xərcin İKT sektorunda yaranan məhsul buraxılışına təsirini qiymətləndirmək olar. Bu baxımdan, dövlət büdcəsi tərəfindən 2005-2022-ci ilin təhsil xərcinin hesabi orta qiymətinin əlaqə tənliyindəki səbəb amilinin əmsalına hasilinin nəticə amilinin (İKT ürə məhsul buraxılışının hesabi orta qiyməti) hesabi orta qiymətinə nisbəti ilə elastiklik əmsalını hesablasaq aşağıdakı nəticəni alarıq (Yadigarov, 2020).

$$E = \frac{\alpha \times \bar{x}}{\bar{y}} = \frac{0{,}641 \times 1279{,}291}{1146{,}078} = 0{,}7162$$

Elastiklik əmsalının 0,72 olması o deməkdir ki, Azərbaycan Respublikasında dövlət büdcəsi tərəfindən təhsilə yönələn xərclərin 1% artması İKT üzrə məhsil buraxılışının həcminin 0,72% artması ilə nəticələnir.

**Yekun nəticə.** Tədqiatlar göstərir ki, təhsil xərclərinin artırılması ilə yanaşı onun əmək bazarının tələbinə uyğun olaraq optimal idarə edilməsi, təhsilin iqtisadi və sosial nəticəsini artıraraq, bu sistemin fəaliyyətinin sosial-iqtisadi səmərəliliyinin yüksəlməsini şərtləndirir. Təhsil sisteminin fəaliyyətinin sosial iqtisadi səmərəliliyinin artması yalnız təhsil xərclərinin artması ilə deyil, bu xərclərin hesabına təhsilin sosial-iqtisadi nəticələrinin müsbət istiqamətdə artması ilə xarakterizə edilir. Bu baxımdan da, təhsil xərcləi ilə yanaçı təhsilin sosial və iqtisadi nəticələrinin optimallaşdırılması hesabına təhsilin sosila-iqtisadi səmərəliliyini yüksəltmək olar.

DOI:10.30546/2790-5799.2.2024.1007.

Araşdırmalar göstərir ki, Azərbaycan Respublikasının dövlət büdcəsindən təhsil və səhiyyəyə yönələn xərclər, eləcə də, sosial müdafiə və təminat xərcləri insan kapitalının inkişafının səmərəliliyinin artırılmasına istiqamətlənərək, informasiya cəmiyyətinin inkişafında əsaslı rol oynayır.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanda dövlət büdcəsindən təhsil sisteminin inkişafına ayrılan xərclər informasiya-kommunikasiya texnologiyaları sahəsinin yaratdığı innovativ məhsul istehsalının artmasına əsaslı şəkildə təsir edir və İKT sektorunda məhsul buraxılışı ilə təhsil xərcləri arasında Çeddok Şkalasına görə funksional asılılığa yaxın olan korrelyasiya əlaqəsi vardır. Bu asılığa əsasən müəyyən edilmişdir ki, Azərbaycan Respublikasında dövlət büdcəsi tərəfindən təhsilə yönələn xərclərlə İKT sektorunda ümumi məhsul buraxılı arasında olduqca yüksək korrelyasiya əlaqəsi vardır və təhsil xərclərinin Azərbaycanda 1% artması İKT üzrə məhsil buraxılışının həcminin 0,72% artmasına səbəb olur.

## Ədəbiyyat siyahısı

1. 19 iyun 2009-cu il tarixli 833-IIIQ nömrəli "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. https://e-qanun.az/framework/18344
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər // Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. https://president.az/az/articles/view/50474
3. Əlirzayev, Ə.Q. (2010) Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı.340/
4. Kərimov, E.N., Osmanov, B.O. (2010) İqtisadi nəzəriyyə Bakı. 630.
5. Yadigarov, T.A. (2019) Əməliyyatlar tədqiqi və ekonometrik məsələlərin MS Excel və Eviews proqram paketlərində həlli: nəzəriyyə və praktika. Bakı. 352.
6. Yadigarov, T.A. (2020) Gömrük statistikası və müasir informasiya texnologiyaları (Monoqrafiya) Bakı. 520
7. Yadigarov, T.A. (2016). Böhran şəraitində tədris müəssisələrinin maliyyə-təsərrüfat fəaliyyətinə təsir edən amillərin optimallaşdırılması yolları. Dəniz nəqliyyatında innovativ texnologiyalar. Bakı, 16 oktyabr,240-245.
8. Астахова, С.М, Ломакин, А.Л. (2008) Основные категории и критерии, характеризующие взаимодейтсвие рынка труда и образовательных услуг. Вестник университета. Москва. Гос. ун-т управления, 4(14), 12–40.
9. Беккер, Г.С. (2003) Человеческое поведение. Экономический подход: пер. с англ. – Москва. Государственный университет – Высшая школа экономики. 672 с.
10. Сумарокова, Е.В. (2001) Инвестиции в человеческий капитал: проблемы и решения. Москва. 144 с.
11. https://www.stat.gov.az/source/education/ (08.05.2024)
12. https://www.stat.gov.az/source/education/ (08.05.2024)
13. https://www.stat.gov.az/source/finance/ (08.05.2024)

## ОЦЕНКА СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЙ ЭФФЕКТИВНОСТИ СИСТЕМЫ ВЫСШЕГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

### Резюме

**Цель исследования** – определить оценку социально-экономической эффективности системы высшего образования Азербайджана в условиях современной трансформации.

**Методологией исследования** - является применение аналитических, наблюдательных, обобщающих, экономико-статистических и эконометрических методов.

**Прикладное значение исследования -** заключается в анализе и оценке современного состояния системы высшего образования Азербайджана на основе данных Государственного комитета статистики Азербайджанской Республики по теме, а также в определении путей повышения социально-экономической эффективности. системы высшего образования.
**Результаты исследования -** Согласно результатам исследования, существует очень высокая корреляция между расходами государственного бюджета и общим выпуском сектора ИКТ, а увеличение расходов на образование определяет увеличение общего выпуска сектора ИКТ.
**Научная новизна исследования -** заключается в выявлении факторов, влияющих на повышение социально-экономической эффективности системы высшего образования Азербайджана.

**Ключевые слова:** валовой внутренний продукт, государственный бюджет, затраты на образование, социально-экономическая эффективность, корреляция, регрессия, коэффициент эластичности, система высшего образования, здравоохранение, социальная защита, социальное обеспечение, коэффициент детерминации.

## ASSESSMENT OF SOCIO-ECONOMIC EFFICIENCY OF THE HIGHER EDUCATION SYSTEM IN THE REPUBLIC OF AZERBAIJAN

### Resume

**Purpose of the study -**determine the assessment of the socio-economic efficiency of the higher education system of Azerbaijan in the conditions of modern transformation. The research methodology is the use of analytical, observational, generalizing, economic-statistical and econometric methods.
**Research methodology -** is the use of analytical, observational, generalizing, economic-statistical and econometric methods.
**Applied significance of the research -** consists of analyzing and assessing the current state of the higher education system of Azerbaijan based on data from the State Statistics Committee of the Republic of Azerbaijan on the topic, as well as identifying ways to improve socio-economic efficiency. higher education systems.
**Results of the Study -** According to the results of the study, there is a very high correlation between government budget expenditure and the total output of the ICT sector, and the increase in education expenditure determines the increase in the total output of the ICT sector.
**Scientific novelty of the research -**is to identify factors influencing the improvement of the socio-economic efficiency of the higher education system of Azerbaijan.

**Key words:** gross domestic product, state budget, education costs, socio-economic efficiency, correlation, regression, elasticity coefficient, higher education system, healthcare, social protection, social security, coefficient of determination.

*Məqalə daxil olmuşdur: 10.06.2024*
*Təkrar işləməyə göndərilmişdir: 27.06.2024*
*Çapa qəbul edilmişdir: 02.07.2024*

*Дата поступления статьи в редакцию: 10.06.2024*
*Отправлено на повторную обработку: 27.06.2024*
*Принято к печати: 02.07.2024*

*The date of the admission of the article to the editorial office: 10.06.2024*
*Send for reprocessing: 27.06.2024*
*Accepted for publication: 02.07.2024*